BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2008*

# POLİTOLOGİYA

## MÜASİR QLOBALLAŞMA PROSESLƏRİ VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ

**Z.H.İBRAHİMOV**
*Bakı Dövlət Universiteti*

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrdən biri də ölkəmizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü etibarlı şəkildə təmin etmək üçün ardıcıl və məqsədyönlü milli təhlükəsizlik siyasətinin formalaşdırılması və həyata keçirilməsinin əsas istiqamətlərini müəyyən etmək məsələsi idi. Bütün bu mürəkkəb və çətin məsələləri gənc müstəqil dövlət olan Azərbaycan Respublikası dünyada və regionda baş verən mürəkkəb geosiyasi proseslər, Ermənistanın ölkəmizə hərbi təcavüzü, bir sıra ölkələrin təzyiqləri, o cümlədən, ölkədaxili mürəkkəb və gərgin siyasi şəraitdə həyata keçirmək məcburiyyətində qalmışdı. Ölkə rəhbərliyi, hər şeydən əvvəl, Azərbaycanın əlverişli geosiyasi üstünlüklərindən istifadə edərək, xarici siyasət sahəsindəki prioritetlərini müəyyən etməklə, beynəlxalq arenada və dövlətlərarası münasibətlər sistemində öz yerini tutmalı və öz mövqelərini möhkəmləndirməli idi. Eyni zamanda Azərbaycan Respublikası özünün milli təhlükəsizlik siyasətini beynəlxalq və regional təhlükəsizlik sistemi ilə üzvü şəkildə əlaqələndirməli idi.

Xalqımızın istək və tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn ulu öndər və ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti və strategiyasının müəyyən olunması və praktiki surətdə həyata keçirilməsi sahəsində çox mühüm işlər görmüşdür. Bu gün biz haqlı olaraq ulu öndər, xalqımızın ümummilli lideri Heydər Əliyevi Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti və strategiyasının banisi hesab edirik. Hazırda ulu öndər Heydər Əliyevin milli təhlükəsizlik siyasəti və strategiyası layiqli varisi kimi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərliyinin ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində bu gün istər daxili və istərsə də hər cür xarici təhlükəsizlik təhdidlərinin qarşısını almaq məqsədilə etibarlı təhlükəsizlik sistemi yaradılmış, milli-təhlükəsizliyi təmin edən dövlət orqanlarının səmərəli fəaliyyəti təmin olunmuşdur. Azərbaycan Respublikası müstəqil təhlükəsizlik siyasəti həyata keçirməklə yanaşı hazırda ölkəmizin milli təhlükəsizliyini etibarlı şəkildə təmin etmək məqsədilə öz siyasətini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirir. Ölkəmizin milli təhlükəsizliyinin və xarici siyasətinin prioritetlərini bütün dünyada və regionda baş verən siyasi proseslərlə üzvü şəkildə əlaqələndirməklə

özünün balanslaşdırılmış, tarazlı və ehtiyatlı siyasətini davam etdirir. Azərbaycan Respublikası hazırda öz təhlükəsizliyini etibarlı şəkildə təmin etmək üçün Avro-Atlantik təhlükəsizlik sisteminə inteqrasiya olmaq siyasətinə üstünlük verir. 2008-ci ilin mart ayının 2-4-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları NATO-nun Buxarest sammitində ölkəmizin Avro-Atlantik təhlükəsizlik strukturlarına inteqrasiya olmaq siyasətinə sadiq qaldığını bir daha bəyan etmişdir. Şimali Atlantika İttifaqının yüksək səviyyəli sammitində ölkə prezidenti İlham Əliyev cənablari Avro-Atlantik Tərəfdaşlıq Şurasının yığıncağında Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını qeyd etməklə yanaşı, Azərbaycanın Avro-Atlantik strukturlarına inteqrasiya olunması siyasətinə sadiq olduğunu, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rolu, Xəzər və Qara dəniz hövzələrinin əməkdaşlığını xüsusi olaraq qeyd etmişdir (1).

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan NATO ilə əməkdaşlığı uğurla davam etdirilir. Alyansın mütəxəssisləri ölkəmizdə hərbi planlaşdırılma və mülkü müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü köməklik göstərir. Azərbaycan NATO ilə hərbi və siyasi xarakterli informasiya mübadiləsi aparır. Hazırda Azərbaycan Şimali Atlantika Alyansı ilə hərbi sahədə də əməkdaşlıq edir. Azərbaycan Silahlı Qüvvələri tamamilə NATO standartlarına keçmişdir. Ölkəmiz Alyansın səkkiz istiqamətində məqsədli proqramlarında iştirak edir.

NATO-nun Buxarest sammitində qəbul olunmuş 50 maddədən ibarət yekun bəyannaməsində Vaşinqton müqaviləsinin müddəalarına sadiq qalmaq, Avropa ilə Şimali Amerika arasında təhlükəsizlik üzrə məşvərətin davam etdirilməsi, müttəfiq dövlətlərin təhlükəsizliyinin ümumi müdafiəsi qeyd olunmaqla yanaşı, İstanbul sammitinin qərarlarına uyğun olaraq, Cənubi Qafqaz və Orta Asiya regionlarının strateji əhəmiyyəti xüsusi olaraq vurğulanmışdır.

NATO-nun zirvə toplantısının yekunu olaraq qəbul olunmuş Buxarest Bəyannaməsinin ən yaddaqalan məqamı isə Alyansın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi oldu. NATO-nun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ölkələrin ərazi bütövlüyü və suverenliyi prinsipi əsasında dəstəklədiyini bir daha bəyan etmişdir. Bəyannamənin 43-cü bəndində NATO ölkələri aşağıdakıları bəyan edir: "Biz Cənubi Qafqaz və Moldova Respublikasında regional münaqişələrin davam etməsindən narahatıq. Bizim ölkələr Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyini dəstəkləyir" (2).

Müasir qloballaşma prosesləri özünün bir sıra müsbət nəticələri ilə yanaşı, eyni zamanda bir sıra neqativ meylləri ilə də xarakterizə olunur. Qloballaşma müasir dövrdə böyük güc mərkəzlərinin diktəsi ilə həyata keçirildiyindən əksər dövlətlərin milli təhlükəsizliyinə çox saylı təhdidlər yaranır, dövlətlərin suverenliyi və ərazi bütövlüyü pozulur, dövlətlərin bir dövlət kimi varlığı təhlükə altında qalır. Bəzi politoloqlar gələcəkdə bir çox dövlətlərin məhv olacağını proqnozlaşdırırlar (3, s.14). Nəzərə almaq lazımdır ki, istər beynəlxalq, istər regional və milli təhlükəsizlik birinci növbədə siyasi sabitliyə və iqtisadi inkşafa əsaslanır. Lakin hazırki dövrün reallıqlarını nəzərə alsaq görərik ki, bütün dünyada siyasi sabitlik, iqtisadi inkişaf eyni səviyyədə deyildir. Dünyanın bir sıra regionlarında münaqişələrin davam etməsi, Şimal-

Cənub, Şərq-Qərb ölkələri arasında qeyri-bərabər inkişafı buna misal göstərmək olar. Bundan başqa, hazırda qloballaşma iştirakçısı olan dövlətlər arasında azad ticarətin, vahid valyuta dövriyyəsinin və sərhədlərin şəffaflığı əsas şərt kimi irəli sürülür. Qeyd olunan proseslər dövlətlərin suverenliyi və ərazi bütövlüyünə böyük təhlükələr yaradır.

Müasir dövrdə beynəlxalq, regional və milli təhlükəsizliyi təmin etmək məqsədilə bir sıra beynəlxalq və regional təşkilatlar yaradılmışdır. Həmin təşkilatların fəaliyyət prinsipləri və məramları müxtəlif olsa da, onlar beynəlxalq güc mərkəzləri arasında tarazlıq yaratmaqla, beynəlxalq sülhü və təhlükəsizliyi təmin etməyə çalışırlar. Lakin bu istiqamətdə atılan addımlar nə qədər inadlı olsa da, iri dövlətlərin və beynəlxalq güc mərkəzlərinin milli maraqlar və mənfəət uğrunda apardıqları mübarizə son məqsədə çatmaq yolunda çox boyük maneələr yaradır. Böyük dövlətlərin beynəlxalq güc mərkəzlərinin yaratmış olduğu maneələri heç də həmişə bütün dövlətlər tərəfindən aşması mümkün olmur. Bəzi super güc mərkəzləri dünyada ağalıq və imperializm siyasəti yeridərək zəif inkişaf etmiş ölkələri daha acınacaqlı vəziyyətə salırlar. Qloballaşma prosesləri isə öz növbəsində bir növ katalizator rolunu oynayır. Buna misal olaraq bu gün bütün dünyada yaranmış ərzaq təhlükəsizliyini qeyd etmək olar.

Bir çox beynəlxalq təşkilatlar və maliyyə qurumları həyəcan təbili çalaraq yaxın bir necə il ərzində bütün dünyanı və ən çox da iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrin ərzaq təhlükəsizliyi ilə üzləşəcəyini proqnozlaşdırırlar.

Müasir qloballaşma prosesləri cəmiyyət həyatının bütün sahələrinə, o cümlədən, milli təhlükəsizliyə ciddi təhdidlər yaradır. Müasir qloballaşma şəraitində bütün dünyada qlobal terrorizm, separatçılıq və dini ekstremizm, dini və irqi ayrı-seçkilik qlobal miqyasda sivilizasiyaların qarşıdurması, qeyri-qanuni silah alveri və narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi cinayətkarlıq və insan alveri meyllərini daha da gücləndirmişdir.

Müasir politoloji ədəbiyyatda milli təhlükəsizliyin müxtəlif meyarlara əsasən tipologiyası və təsnifatı verilmişdir: 1.Siyasi təhlükəsizlik. 2. İqtisadi təhlükəsizlik. 3. Hərbi təhlükəsizlik. 4.İnformasiya təhlükəsizliyi. 5. Ekoloji təhlükəsizlik (4, s. 35).

Müasir dövrə qədər mövcud olan təhlükəsizlik konsepsiyalarında əsasən müharibə və sülh alternativlərinə geniş yer verilmişdir. Bu gün isə azad ticarətin və demokratiyanın inkişafı ilə əlaqədar olaraq bir çox tədqiqatçılar müharibələri istisna edirlər. Həmin tədqiqatçılar belə hesab edirlər ki, qloballaşma beynəlxalq əməkdaşlığın daha da güclənməsinə və vahid dünya birliyinin yaranmasına gətirib çıxaracaqdır. Bir çox tədqiqatlar isə gələcəkdə qloballaşma proseslərinin “qlobal anarxiyaya” səbəb olacağını proqnozlaşdırırlar.

Həmin tədqiqatçılar belə hesab edirlər ki, qloballaşma ultramillətçiliyin, irqi ayrı-seçkiliyin, dini dözümsüzlük və fundamentalizminin və terrorçuluğun daha da güclənməsinə gətirib çıxaracaqdır. Hazırda bir çox tədqiqatçılar isə ekoloji problemləri ön plana çəkərək, gələcəkdə qloballaşma nəticəsində ekoloji vəziyyətin daha da pisləşəcəyi və bəşəriyyətin mövcudluğunun təhlükə altına düşəcəyini proqnozlaşdırırlar (3, s. 186).

Hazırda qlobal iqlim dəyişmələri və qlobal istiləşmə, ozon qatının dağılması, Antarktikada buzlaqların əriməsinin çoxalması gələcəkdə dünya okeanlarında suyun səviyyəsinin artması problemləri bütün

bəşəriyyətin bir nömrəli probleminə çevrilmişdir. Bir çox ekoloqlar və siyasi xadimlər həyəcan təbili çalaraq yaxın gələcəkdə sənaye istehsalı nəticəsində ətraf mühitə atılan tullantıların çoxalması nəticəsində qlobal istiləşmənin və ətraf mühitin çirklənməsinin qarşısının alınması istiqamətində təcili və təxirəsalınmaz tədbirlərin görülməsini təklif edirlər. Düzdür, bu istiqamətdə bəzi inkşaf etmiş ölkələrdə müəyyən tədbirlər görülsə də, hələlik qlobal ekoloji proseslər sürətlə inkşaf edir. Bəzi ekoloqlar isə yaxın gələcəkdə şirin su və içməli su ehtiyatlarının tükənməsi ehtimalını irəli sürürlər.

Müasir qloballaşma prosesləri iqtisadi inkşafa səbəb olmaqla yanaşı, iqtisadi təhlükəsizliyə daha çox zərər vurur. Qloballaşma tərəfdarları belə hesab edirlər ki, müasir qloballaşma dünyanı vahid bir bazara çevirməklə iqtisadi inkişafa daha çox səbəb olacaqdır. Məhşur tədqiqatçı Villam Qredera görə qlobal kapitalizm qloballaşma nəticəsində nəzarətdən çıxaraq uçuruma dogru gedir. Müasir dövrdə qlobal kapital ixracı zəif inkişaf etmiş ölkələri tamamilə diz üstündə çökdürə bilər.

Hazırda varlı Şimal ölkələri ilə yoxsul Cənub ölkələri arasında uçurum daha da dərinləşir. Son məlumatlara görə dünyada baş verən iqtisadi böhran üçüncü dünya ölkələrində kütləvi aclıq böhranına gətirib çıxara bilər. Bir çox inkişaf etməkdə olan ölkələr hazırda qlobal maliyyə böhranları ilə üzləşmişlər. Qlobal enerji böhranı və enerji təhlükəsizliyi inkşaf etmiş ölkələr üçün əsas problem olaraq qalmaqda davam edir.

Müasir qloballaşma prosesləri mədəni, milli-mənəvi dəyərlərə və intellektual təhlükəsizliyə daha ciddi zərbələr vurur. Hətta müasir Qərb ölkələrinin özündə də çox güclü anti-qlobalizm hərəkatları meydana gəlmişdir. Qloballaşma tərəfdarları isə bunun əksinə olaraq qloballaşmanın mədəni plyuralizmin və inovasiya proseslərinin daha da güclənəcəyini ön plana çəkirlər. Onlar belə hesab edirlər ki, qlobal kommunikasiya prosesləri mədəniyyətlərarası anlaşma və ünsiyyət proseslərini asanlaşdıracaq, bu isə dünya birliyinin formalaşmasına gətirib çıxaracaqdır. Əslində isə bu gün sivilizasiyalararası ünsiyyət və dialoqların artması ilə yanaşı, müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında gərginliyin daha da güclənməsi prosesi baş verir. Həmin gərginlik hazırda Şərq və Qərb sivilizasiyaları arasında daha da artmaqda davam edir. Bir çox tədqiqatçılar belə hesab edirlər ki, hazırda qlobal əlaqələr mədəni imperalizmin tərkib hissəsi kimi çıxış edir.

BMT-nin Minilliyin zirvə görüşünün 2000-ci il il 8 sentyabr tarixində qəbul olunmuş bəyannaməsində deyilir: “Qloballaşma yalnız bütün müxtəlifliyi ilə bəşər nəslinə mənsubluğumuza əsaslanan ümumi gələcəyin formalaşdırılması sahəsində irimiqyaslı və təkidli səylərimiz sayəsində tam, hərtərəfli və ədalətli xarakter ala bilər” (5, s.121).

BMT-nin beynəlxalq hüquq komissiyasının üzvü professor İ.İ.Lukaşuk yazır: “Bəşəriyyət qarşısında duran problemlərin xüsusiyyəti bundadır ki, onlar qlobal xarakter daşıyır və yalnız bütün dövlətlərin birgə səyləri ilə həll edilə bilər. Beynəlxalq birlik bəşəriyyəti xilasetmə birliyi olmalıdır. Bundan ötrü həm milli, həm də qlobal səviyyədə sosial proseslərin idarə edilməsi daha yüksək səviyyədə olmalıdır” (6, s. 8).

Başqa bir tədqiqatçı professor E.O.Koçetov hərtərəfli qloballaşmanı müasir dünyanın inkşafının başlıca meyli hesab edir. E.O.Koçetov belə hesab edir ki, beynəlmiləlləşmə yekun mərhələsinə qədəm qoymuşdur, dünya təkcə fəlsəfi baxımdan deyil, həm də reallıqda vahidləşir (7, s.315).

Qlobal təhlükəsizlik sisteminin yaranması ideyası hələ vaxtilə

böyüк alman filosofu İ.Kant tərəfindən irəli sürülmüşdür.

XX əsrdə onlarla belə layihələr işlənmişdir. Ötən əsrin 80-cı illərində ABŞ-ın Bruкlin Universitetinin bir qrup əməкdaşı “Kooperativ təhlüкəsizliк” nəzəriyyəsini işləyib hazırlamışdı. Həmin nəzəriyyə təcavüzкar dövlətin qarşısını almaq üçün əvvəlcədən hazırlanmış hərbi tədbirlərin həyata кeçirilməsini nəzərdə tuturdu. Hazırda bütün dünyada qlobal təhlüкəsizliyi təmin edən bir neçə beynəlxalq və regional təşкilat fəaliyyət göstərir. Belə universal təşкilat кimi BMT-ni göstərməк olar. Bundan başqa regional təşкilat кimi ATƏT-i və кolleкtiv hərbi-siyasi bloк кimi NATO-nu qeyd etməк olar. ABŞ-in milli təhlüкəsizliк nəzəriyyəsinin кlassiкlərindən biri olan İ.Koenin milli təhlüкəsizliyə dair irəli sürdüyü sxem maraq doğurur. İ.Koeninin sxemi belədir: Koperativ təhlüкəsizliк - Kolleкtiv müdafiə-Kolleкtiv təhlüкəsizliк-Əməкdaşlıq.

Qeyd etməк lazımdır кi, ümumiyyətlə, bütün dünyada milli təhlüкəsizliк кonsepsiyasının geniş şəкildə işlənib hazırlanması ABŞ politoloqlarına və siyasi xadimlərinə məxsusdur. Bu baxımdan ABŞ siyasi fiкrinin кlassiкlərindən biri hesab edilən Hans Morgentaunu xüsusi olaraq qeyd etməк lazımdır. H.Morgentau 20 ilə yaxın Çiкaqo Universiteti nəzdindəкi Xarici və Hərbi Tədqiqatlar Mərкəzinin rəhbəri vəzifəsində işləmişdir. İlк dəfə olaraq H.Morgentau milli təhlüкəsizliyin əsasında milli maraqların və mənafenin dayanması ideyasını irəli sürmüşdür. Milli mənafelərə o, ölкənin geosiyasi vəziyyətini, ölкənin ərazisini, təbii ehtiyatları, ölкənin əhalisini aid edirdi. H.Morgentau diplomatiyanı milli gücün əsas elementi hesab edirdi. Diplomatiya milli gücün dinc vasitələrlə təmin olunması vasitəsidir. O, belə hesab edirdi кi, hər cür siyasətdə olduğu кimi beynəlxalq siyasət də təsir uğrunda mübarizədir. Həmin mübarizə məкan və zamana görə universal xaraкter daşıyır və təcrübəyə əsaslanır. İstənilən xarici siyasət ya öz gücünü saxlamağa, ya həmin siyasəti gücləndirməyə, ya da həmin gücü nümayiş etdirməyə çalışır. Siyasətin bu üç nümunəsinə beynəlxalq davranışın üç tipi uyğun gəlir. Bunlar hazırкı vəziyyəti, imperializm siyasətini və öz gücünü saxlamaq siyasətidir.

Beynəlxalq münasibətlərin müstəqil subyeкti кimi Azərbaycan Respubliкası da öz təhlüкəsizliyini etibarlı şəкildə təmin etməк üçün təhlüкəsizliк siyasətini beynəlxalq və regional təhlüкəsizliк sistemi ilə uyğunlaşdırmaq istiqamətində çox uğurlu addimlar atmışdır. Milli təhlüкəsizliк siyasəti dövlətin milli strategiyasının əsasını təşкil edir. Ölкəmizin millli təhlüкəsizliк strategiyasının əsas müddəaları Azərbaycan Respubliкasının Konstitusiyasında öz əкsini tapmışdır. Əsas qanunda qeyd olunur кi, hər bir vətəndaşın təhlüкəsiz yaşamaq hüququ var (8). Milli təhlüкəsizliк və siyasi strategiya problemlərinin tədqiqatçılarından biri olan A.Piriyev yazır: “Azərbaycan Respubliкası yeni yaranan dövlət кimi daxili və xarici siyasət strategiyası qəbul edir. Bu strategiyanın istiqamətlərində milli mənafe, milli maraqlar, milli təhlüкəsizliк məsələləri əsas yer tutur» (9, s. 5).

Hər bir ölкənin milli təhlüкəsizliк siyasəti və strategiyası müəyyən olunarкən milli mənafe və milli maraqlar əsas götürülür. Milli mənafe və milli maraqları milli tələbatlar müəyyən edir. Müasir elmi ədəbiyyatda milli tələbat və mənafelərin müxtəlif meyarlar əsasında tipologiyası və təsnifatı verilir. Milli təhlüкəsizliк siyasəti cəmiyyətin ayrı-ayrı struкtur elementləri arasında əlaqələr yaratmaq yolu ilə vahid siyasi məqsədlərin həyata кeçirilməsini nəzərdə tutur. Milli

təhlükəsizlik konsepsiyasında dövlətin milli maraq və mənafeləri əsas götürülməklə dövlətin xarici siyasətinin yaxın və uzaq hədəfləri müəyyən olunur.

2004-cü ildə ilk dəfə gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" qanunu Milli Məclis tərəfindən qəbul edilmişdir. Qanunun giriş hissəsində deyilir: "Bu qanun Azərbaycan Respublikasının müstəqil, suveren demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarının yaradılmasına yönəlmişdir". Daha sonra Qanunun 1-ci maddəsində deyilir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir (10, s. 2235). Milli təhlükəsizlik haqqında Qanunda ümumi müddəalarla yanaşı, ölkəmizin milli maraqları, milli təhlükəsizliyə olan təhdidlər, milli təhlükəsizlik sistemi, milli təhlükəsizliyi təmin edən qüvvələr və dövlət orqanları və onların səlahiyyətləri, milli təhlükəsizliyin təmin olunmasının tərkib hissələri və sahələri öz əksini tapmışdır.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti və strategiyasının müəyyən olunmasına ölkə prezidenti İlham Əliyev cənablarının «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının» təsdiq edilməsi haqqında 2007-ci il 23 may tarixli sərəncamı və Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının qəbul olunmasının çox böyük əhəmiyyəti oldu. Sərəncamda deyilir: "Dünyada baş verən sürətli dəyişiklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və s. təhlükələrlə üzləşir.

Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir. Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorunmağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası təsdiq edilsin.

2. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar öz fəaliyyətində Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının müddəalarını rəhbər tutsunlar (11, s.1388).

Qeyd etmək lazımdır ki, indiyə qədər qəbul olunmuş sənədlər içərisində milli təhlükəsizlik konsepsiyası özünün yüksək elmi və nəzəri konseptuallığı ilə seçilir. Milli təhlükəsizlik konsepsiyasında deyilir: "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçim kimi Avropa-Atlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmuudur" (12, s. 1389).

Milli təhlükəsizlik konsepsiyasının təhlükəsizlik mühiti bölməsində ölkənin təhlükəsizlik mühiti, onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı milli maraqları, davamlı inkişafı, əhalinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillər məcmuu kimi xarakterizə olunur. Konsepsiyada qeyd olunur ki, Qərb və Şərq dünyalarının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə birləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avro-Atlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Eyni zamanda, Azərbaycan Respublikası islam dünyasının bir hissəsi kimi bu mədəniyyətin irs və təfəkkürünü bölüşür (12, s. 1389-1390). Milli təhlükəsizlik konsepsiyasında eyni zamanda qeyd olunur ki, ölkənin yerləşdiyi cografi şərait ona vacib üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Milli təhlükəsizlik konsepsiyasında ölkənin milli maraqları, milli təhlükəsizliyə olan təhdidlər, milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri, o cümlədən region ölkələri və beynəlxalq təşkilatlarla əməkdaşlıq, təhlükəsizliyin daxili siyasət vasitəsi ilə təmin edilməsi, sərhəd təhlükəsizliyi, enerji və informasiya təhlükəsizliyi məsələləri öz əksini tapmışdır.

Milli təhlükəsizlik konsepsiyasının yekun müddəaları bəndində isə deyilir ki, bu konsepsiya Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunması məqsədilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların əlaqələndirilmiş fəaliyyətini təmin edir (12, s. 1412).

Hazırda ölkəmizin milli təhlükəsizlik siyasətini həyata keçirən bütün orqanlar "Milli təhlükəsizlik konsepsiyası"nda irəli sürülən bütün müddəaları rəhbər tutaraq, öz fəaliyyətlərini səmərəli təşkil etməklə, istər ölkə daxilində və istərsə də xaricdən ola biləcək bütün təhdid və təhlükələrin qarşısını etibarlı şəkildə almaq istiqamətində çox ciddi, ardıcıl və məqsədyönlü iş aparırlar.

## ƏDƏBİYYAT


1. «Zerkalo» qazeti, 2008 –ci il, 5 mart.
2. «525-ci qəzet», 2008-ci il, 11aprel.
3. Дергачев В.А. Глобалистика, М.: 2005.
4. Основы национальной безопасности, 2006, с.
5. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: 2005, s. 121.
6. Лукошук И.И. Глобализация, государства, право, XXI век. М.: 2000, с. 8.
7. Кочетов Э.Г. Геоэкономика. Учебник. М.: 1999, с. 315.
8. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2005.
9. Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: 2005.
10. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. №8, 2004-cü il, 31 avqust.
11. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. №5, 2007-ci il, 31 may.
12. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası / Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2007-ci il, 31 may, №8.


## СОВРЕМЕННЫЕ ПРОЦЕССЫ ГЛОБАЛИЗАЦИИ И НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

З.Г.ИБРАГИМОВ

**РЕЗЮМЕ**

В статье раскрывается сущность и содержание понятий «глобализация» и «национальная безопасность». Автор отмечает, что современные глобальные процессы наряду с позитивными тенденциями имеют и некоторые негативные последствия. Эти общемировые глобальные вызовы создают большую опасность и их существование в отдельных государствах. Приобретая свою национальную независимость, Азербайджан первым долгом должен был определить свои внешнеполитические приоритеты и на основе национального интереса разработал и осуществил политику национальной безопасности.

В статье отмечается, что в настоящее время высшее руководство страны в своей внешней политике, осуществляя сбалансированную политику, успешно увязывает политику национальной безопасности страны с глобальной и региональной безопасностью.

## THE CONTEMPORARY PROCESSES OF GLOBALIZATION AND THE NATIONAL SECURITY OF AZERBAIJAN

**Z.G.IBRAHIMOV**

**SUMMARY**

In the article the essence and context of the understanding “globalization” and “national security” is considered.

The author notes, that the contemporary global processes have positive tendentions, but at the same time some negative results as well. These global calls create danger in some countries. Having got its national independence the Republic of Azerbaijan had to determine its foreign policy on the base of its nations’ interests and carry out the policy of national security as well.

In the article, it is also noted that at the present time the authorities of the carry out the balanced policy and also the policy of national security of the country in the fields of globalization and security as well.